# YUBİLEY

## DÖVLƏT VƏ HÜQUQ NƏZƏRİYYƏSİ VƏ TARİXİ KAFEDRASI – 40

Azərbaycanda hüquqi təhsil özünün başlanğıcını orta əsrlərdən götürür. Hələ XIII əsrin sonu – XIV əsrin əvvəllərində Təbriz darülfününunda hüquq (fiqh) elminin tədrisinə xüsusi önəm verilirdi. Həmin dövrdə və sonrakı dövrlərdə Azərbaycanda çoxsaylı görkəmli hüquqşünaslar yetişmişdi. Onların bir qismi öz əsərlərində hüquq nəzəriyyəsi və hüquq tarixi məsələlərinə müraciət etmiş və mövcud problemlərə dair şərhlərini vermişlər.

İlk Respublika - Azərbaycan Xalq Cümhuriyyəti dövründə bütün Şərq aləminə xas olduğu kimi, Azərbaycanda da elmin inkişafı məsələsi daim diqqət mərkəzində olmuş, ağır və ciddi daxili və xarici xarakterli çətinliklərə baxmayaraq, elm və təhsil ocaqlarının yaranması məsələsi mühüm bir vəzifə kimi qarşıya qoyulmuşdu. AXC Parlamentinin Bakı Dövlət Universitetinin təsis edilməsi haqqında 1 sentyabr 1919-cu il tarixli qanunu bunun bariz nümunəsidir. Bakı Dövlət Universitetinin yaradılması və fəaliyyətə başlaması hüquq elminin tədrisi istiqamətində geniş üfüqlər açmış oldu. Universitetdə ilkin olaraq təşkil olunması nəzərdə tutulan dörd fakültədən biri hüquq fakültəsi idi. Lakin milli kadrların çatışmazlığı, milli dildə müvafiq tədris ədəbiyyatının əldə olunmasının çətinliyi, eyni zamanda bütövlükdə 4 fakültənin hər biri üçün maddi-texniki bazanın yaradılması istiqamətində maliyyə çatışmazlığı baxımından qarşıya çıxan problemlər iki fakültənin – tarix-filologiya və tibb fakültələrinin fəaliyyətə başlamasını mümkün etmişdi.

1928-ci ildə Universitetin şərq fakültəsinin hüquq bölməsinin bazasında yaradılan hüquq fakültəsi respublikada ali hüquqi təhsil verən yeganə elmi-tədris mərkəzi idi. Yarandığı andan etibarən qısa bir zaman kəsiyində hüquq fakültəsi yalnız Bakı Dövlət Universitetinin deyil, qonşu respublikaların universitetlərinin hüquq fakültələrinin içərisində özünün elmi potensialının üstünlüyü baxımından fərqlənirdi.

Hüquq fakültəsi yarandığı zaman onun nəzdində formalaşdırılması nəzərdə tutulan aparıcı kafedralardan biri də Dövlət və hüquq nəzəriyyəsi kafedrası idi. Hətta fakültənin dekanı prof. L. Mişel eyni zamanda həmin kafedranın müdiri seçilmişdi. Kafedrada dövlət və hüququn nəzəri və tarixi problemləri ilə bilavasitə əlaqəli olan fənlərin tədris olunması qərara alınmışdı. Buna baxmayaraq, kafedranın işini tam həcmdə təşkil etmək müəyyən səbəblər üzündən (kadrların və tədrislə bağlı ədəbiyyatın çatışmazlığı) mümkün olmamış və ona görə də az sonra Dövlət və hüquq nəzəriyyəsi kafedrası Dövlət hüququ kafedrası ilə birləşdirilmişdi.

Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrası 1968-ci ildən etibarən Dövlət hüququ kafedrasından ayrılaraq müstəqil fəaliyyət göstərməyə başlamışdır. Yarandığı andan bəri kafedraya AMEA-nın

müxbir üzvü, hüquq elmləri doktoru, professor, Azərbaycan Respublikasının əməkdar hüquqşünası M.F.Məlikova rəhbərlik etmişdir. Kafedranın BDU-nun elmi-tədrisi bölümü kimi müstəqil olaraq fəaliyyətə başlaması dövlət və hüquq nəzəriyyəsi və tarixi elm sahələrinin tədrisi işinin daha da yaxşılaşdırılmasına, həmin elm sahələri üzrə elmi tədqiqatların səmərəliliyinin artırılmasına səbəb olmuşdur.

Universitetin bütün elm-tədris strukturları kimi Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrası da özünün fəaliyyətini iki istiqamətdə – elmin inkişafı və tədris prosesinin təkmilləşdirilməsi yönümündə qurmuşdur.

İlk növbədə kafedra müvafiq fənlərin tədris işinin keyfiyyətli şəkildə aparılması məqsədilə milli elmi kadrlara olan tələbatının təmin edilməsi istiqamətində mühüm tədbirlər görmüşdür.

Kafedra təşkil olunan zaman onun tərkibində prof. M.F.Məlikova, h.e.n., dos. Ə.Əliyev, h.e.n., dos. İ.Təriqpeyma, h.e.n., dos. V.Hacıyev, dos. V.Rəhimzadə, h.e.n., dos. M.Altman olmuşlar. Tədricən kafedranın ştat siyahısında müəyyən dəyişikliklər, yeniləşmələr baş vermişdir. Universitetin hüquq fakültəsinin istedadlı, elmə və tədris işinə həvəskar olan məzunları, təcrübəli praktiki işçilər hesabına yeni kadrların – E.R.Bayramov, S.A.Mirzəyev, Ş.M.Əliyev, E.Q.Nəbiyev, L.H.Hüseynov, D.M.Məmmədova və b. kimi hüquqşünas-mütəxəssislərin cəlb edilməsi yolu ilə kafedranın elmi və tədrisi fəaliyyətinə yeni nəfəs verilmişdir.

Sonralar da kafedra bu sahədə öz işini müvəffəqiyyətlə davam etdirmişdir. Belə ki, ötən əsrin 90-cı illərindən bəri kafedranın müəllimləri sırasına istedadlı gənc hüquqşünasların daxil olması kafedranın elmi potensialının daim yüksəlməsinə şəhadət verir. Bunların sırasında D.Hüseynovun, E.T.Qədirovun, M.N.Səmədovun, K.V.Talıbovanın, X.C.İsmayılovun, L.Hüseynovun, T.Z.Əliyevin, E.R.Quliyevin, F.Ə.Seyidovun, F.Ə.Miriyevanın, R.S.Kazımovun və b. adlarının, xüsusilə çəkilməsini ədalətli hesab etmək olardı.

Gənc mütəxəssis kadrların düzgün seçimini həm də o şərtləndirir ki, kafedrada öz ixtisaslarının artırılması üzərində gərgin işləməklə yanaşı, demək olar ki, bütün əməkdaşların hamısı Bakıda, Moskvada, Kiyevdə və digər şəhərlərdə namizədlik dissertasiyalarını müvəffəqiyyətlə müdafiə etmiş, onların bir qismi dosent elmi adına layiq görülmüşdür. Təqdirəlayiq haldır ki, bilavasitə kafedranın adı çəkilən gənc əməkdaşlarının içərisindən dövlət vəzifələrinə dəvətlər olmuş və onlar hal-hazırda da həmin məsul vəzifələri ləyaqətlə yerinə yetirirlər.

Hazırda kafedrada cəmi 16 (tam ştatda, yarım ştatda və saathesabı qaydada) müəllim çalışır. Bu gün kafedra işçiləri müəllim vəzifəsindən başlayaraq hüquq elmləri namizədi dərəcəsinə, baş müəllim, dosent adlarına qədər elmi yol keçmişlər. Yalnız son beş il ərzində 6 nəfər namizədlik dissertasiyası, 1 nəfər doktorluq dissertasiyası müdafiə etmiş və müvafiq elmi dərəcə almışdır. Kafedranın ştatında olan bütün üzvlər (E.R.Quliyevin namizədlik dissertasiyası kafedrada müzakirə edilmiş və müdafiəyə məsləhət görülmüşdür) elmi dərəcəyə malikdirlər, bəziləri isə (h.e.n., dos.X.C.İsmayılov, h.e.n., dos.E.Q.Nəbiyev, h.e.n., dos. M.N.Səmədov, h.e.n.T.Z.Əliyev) doktorluq dissertasiyaları üzərində çalışırlar.

Kadr məsələsinin həlli ilə yanaşı, kafedra qarşısında duran digər mühüm bir vəzifə qısa müddətdə tədris prosesinin maddi bazasının yaradılması olmuşdur. Ana dilində dərsliklərin və dərs vəsaitlərinin tərtib edilməsi xüsusilə zəruri idi. Bu mürəkkəb problemin həlli respublikamızda Azərbaycan dilində müvafiq tədris materialının olmaması ilə son dərəcədə müşkül bir işə çevrilmişdi. Müşküllük kafedra əməkdaşlarının dərslik tərtib etmək bacarığının olub-olmamasında deyildi. Bütün hüquqi ədəbiyyat Moskva hüquqşünas-alimləri tərəfindən rus dilində yazılmışdı və yalnız həmin ədəbiyyatın tərcüməsinə icazə verilirdi. Ana dilində dərsliklərin yerli hüquqşünas-alimlər tərəfindən yazılmasına qeyri-rəsmi qadağa qoyulmuşdu. Tələbələr mürəkkəb tədris materialını müəllimlərin mühazirələri və qeydləri əsasında öyrənməli və mənimsəməli olurdular.

Buna görə də qarşıda tədris prosesinin təkmilləşdirilməsi, onun kafedranın əhatə etdiyi fənlər üzrə maddi-tədris bazasının yaradılması və zənginləşməsi məsələləri kafedranın fəaliyyətinin əsas vəzifələrindən biri kimi dururdu. Bununla belə, tədris materiallarının milli dildə nəşr edilməsinə praktiki olaraq yol verilməməsi şəraitində prof. M.F.Məlikova tərəfindən ilk dəfə olaraq Azərbaycan dilində «Dövlət və hüquq nəzəriyyəsi» adlı dərsliyin iki nəşrinin (1979, 1988-ci illər), 1984-cü ildə yazılmış «Azərbaycanın siyasi və hüquqi nəzəriyyələr tarixi» (h.e.n., dos.E.R.Bayramovla şərikli) kitabının, bir çox dərs vəsaitlərinin, baş redaktoru və 80-dən artıq məqalənin müəllifi olduğu «Hüquq ensiklopedik lüğəti»nin (1991) dərc olunmasını qeyd etmək lazımdır. Bunlarla yanaşı, kafedra 1977-ci ildə «История государства и права СССР» (prof.O.İ.Çistyakovun red. ilə, M., 1971) dərsliyinin 2-ci hissəsinin ana dilinə tərcüməsini və nəşrini təşkil etmişdir.

Kafedra bu sahədə milli dildə dərslik və dərs vəsaitlərinin hazırlanması və dərc edilməsinə əsasən Azərbaycan öz müstəqilliyini əldə etməsindən sonra başlamışdır. Müasir dövrdə kafedranın əməkdaşları milli dövlət və hüquq nəzəriyyəsi problemlərinin, xarici ölkələrin və Azərbaycanın dövlət və hüquq tarixinin, milli siyasi və hüquqi təlimlərinin tədqiqinə, Şərq ölkələrinin təməli olan və əvvəllərdə Azərbaycanda qüvvədə olmuş müsəlman hüququnun araşdırılmasına xüsusi diqqət yetirmiş və yeni dərsliklər tərtib edərək dərc etdirmişlər. Təqdirəlayiq haldır ki, aparılmış elmi tədqiqatlar və əldə olunmuş elmi nəticələr əsasında kafedranın təşəbbüsü ilə milli dövlət və hüquq tarixinin öyrənilməsi ilə əlaqədar olan yeni fənlər – «Azərbaycanın siyasi və hüquqi təlimlər tarixi», «Azərbaycanın dövlət və hüquq tarixi», «Müsəlman hüququnun əsasları» kimi fənlər formalaşdırılmış və onlar respublikanın hüquq təhsili üzrə tədris planına daxil edilmişlər.

Son 10 il ərzində kafedra müəllimləri tərəfindən bakalavr təhsil pilləsində tədris olunan, demək olar ki, bütün fənlər üzrə dərsliklər, dərs vəsaitləri, tədris metodik vəsaitləri, tədris proqramları yazılaraq nəşr etdirilmişdir. Bunlara misal olaraq M.F.Məlikova və E.Q.Nəbiyev tərəfindən respublikada ilk dəfə olaraq bu sahədə yazılmış «Xarici ölkələrin dövlət və hüquq tarixi», (Bakı, 1997, 26 ç.v., 2005, 29 ç.v.), «Müasir dövlət və hüquq tarixi» (Bakı, 2003. 40 ç.v.) dərsliklərini; M.F.Məlikovanın və X.C.İsmayılovun «Qədim dövrlərdə və erkən orta əsrlərdə Azərbaycanın dövlət və hüququ» dərs vəsaitini (Bakı, 2001, 11,5 ç.v.); X.C.İsmayılovun «Azərbaycanın dövlət və hüquq tarixi»

(Bakı, 2006, 45 ç.v.) dərsliyini göstərmək olar. Eyni zamanda magistr təhsil pilləsi üçün M.F.Məlikova tərəfindən yazılmış «Kitabi-Dədə Qorqud» da ictimai-siyasi ideyalar» (Bakı, 2000); X.C.İsmayılovun «X1X əsrdə Azərbaycanda məhkəmə sistemi» (Bakı, 2004); M.N.Səmədovun «Dövlətlərin yurisdiksiyası çərçivəsində beynəlxalq hüquq normalarının implementasiyası» (rus dilində. Bakı, 2002) kitablarını qeyd etmək olar.

Kafedra müəllimlərinin əsərlərinin ölkəmizin hüdudlarından kənarda nəşr edilməsi onların yüksək ixtisaslı mütəxəssis olmalarına şəhadət verir. Kafedra üzvlərinin bəziləri Moskva Dövlət Universitetinin və SSRİ Elmlər Akademiyasının müəlliflər kollektivinin tərkibində dərsliklərin və çoxcildli monoqrafiyaların yazılması ilə əlaqədar dəvət olunmuş (prof. M.F.Məlikova), bəziləri isə tərtib etdikləri dərs vəsaitlərini, elmi məqalələrini Rusiya Federasiyasının Moskva və Mahaçqala şəhərlərində (dos. X.C.İsmayılov), Almaniyada (E.T.Qədirov) nəşr etdirmişlər.

Ali məktəblərin xüsusiyyəti ondadır ki, bu qisim təsisatlar bəşəriyyət tarixində əbədi olaraq iki müqəddəs funksiya daşımışlar: müvafiq biliklərin tələbələrə aşılanması və elmin inkişafı. Bu iki funksiya üzvi şəkildə bir-biri ilə sıx bağlıdır və ayrılmazdır. Elmi inkişaf etdirmədikdə bilik kasadlaşır; biliklər yayılmadıqda, tədris olunmadıqda isə elmdə durğunluq əmələ gəlir. Bu baxımdan ali məktəb həm elm, həm də tədris ocağıdır. Məhz buna görə də ali məktəbdə və onun struktur bölmələrində (kafedralarda, laboratoriyalarda və s.) tədris işi ilə yanaşı, mükəmməl, dərin elmi-tədqiqatlar aparılır. Burada elmin inkişafı tədrisin təkmilləşdirilməsinə təkan verir. Demək olar ki, elm tədrisin mühüm bazasıdır, bünövrəsidir.

Dünya ölkələrinin ali məktəblərində olduğu kimi, Bakı Dövlət Universitetinin professor-müəllim kollektivi öz fəaliyyətini iki istiqamət üzərində qurur – elmin inkişafı, elmi tədqiqatların aparılması və elmin müxtəlif sahələrinin nailiyyətləri nəzərə alınaraq tədrisin təşkili. Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin "Bakı Dövlət Universiteti Azərbaycanın aparıcı təhsil ocağıdır. Burada çox güclü professor-müəllim heyəti vardır və bütün dövrlərdə universitet Azərbaycanda peşəkar kadrların hazırlanmasında çox böyük işlər görmüşdür" ifadəsi bu ali təhsil ocağına verilən yüksək qiymətin bariz nümunəsidir.

Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrası da fəaliyyətini bu iki istiqamət üzərində kökləmiş, öz diqqətini tədris prosesinə cəlb etməklə yanaşı, üzvlərinin fəaliyyətini elmi tədqiqatların aparılmasına, ictimai inkişafın tələbatlarına uyğun, onları əks etdirən problemlərin həllinə yönəltməsini təşkil etmişdir.

Fəaliyyətinin ilk iki onilliyi ərzində kafedranın kollektivi müvafiq fənlər üzrə tədrisin təşkili və aparılması ilə yanaşı, əsasən iki istiqamətdə – dövlət və hüquq nəzəriyyəsinin və dövlət və hüquq tarixinin problemləri istiqamətində elmi iş aparırdı.

Qeyd etmək lazımdır ki, əvvəlki dövrlərdə və sonrakı illərdə kafedra əməkdaşlarının dərc olunmuş elmi əsərləri əsasən Azərbaycanın dövlət və hüququnun nəzəri və tarixi problemlərinə həsr edilmişdir.

Hüquqi dövlət quruculuğu istiqamətində intensiv işlərin aparıldığı, hüquqi islahatlara rəvac verildiyi mərhələdə qazanmış ənənəni davam

etdirərəк, кafedra əməкdaşları suveren Azərbaycan dövləti və hüququ ilə bağlı problemlər üzərində işləməyi özlərinə borc bilib çoxlu elmi məqalələr, broşürlər dərc etmişlər. Bunların sırasında prof. M.F.Məliкovanın «Azərbaycan Respubliкasında qanunvericiliyin кonstitusiya-hüquqi əsasları», «Azərbaycanda hüquqi islahat və Konstitusiya Məhкəməsi», «Naxçıvan Muxtar Respubliкasının кonstitusion inкişafının bəzi aspeкtləri» və s., X.C.İsmayılovun «Yerli özünüidarəetmənin təşəккülü və inкişafının bəzi nəzəri problemləri haqqında», «Yerli özünüidarəetmə: hüquqi təbiəti və sistemli yanaşmanın bəzi aspeкtləri», K.V.Talıbovanın "Məhкəmə - insan hüquqları müdafiəsinin ən səmərəli vasitəsi кimi", M.N.Səmədovun "Azərbaycan Respubliкası Konstitusiya məhкəməsinin fəaliyyətinin beynəlxalq-hüquqi əsasları" və s. qisim əsərlər müasir dövrümüzdə elmin ən aкtual problemlərinin tədqiqinə həsr olunmuşdur.

Kafedranın elmi tədqiqat işlərinin əsas istiqamətlərindən biri də Azərbaycanda siyasi-hüquqi fiкir tarixinin işlənilməsindən ibarətdir. Bu, özlüyündə tamamilə yeni, Azərbaycanda ideologiyanın işlənməmiş sferasıdır, ona görə кi, Sovet dövrünün əsas tədqiqatları əcnəbi və rus mütəfəккirlərinin təlimlərinin araşdırılmasına istiqamətlənmişdir. Həqiqəti bərpa etməк zərurəti yaranmışdı. Azərbaycan xalqının özünün fəlsəfi və siyasi-hüquqi fiкir tarixinə maliк olmasını sübut etməк lazım idi. Azərbaycanın ictimai-siyasi və hüquqi fiкir tarixinin nümayəndələrinin adları Qərbin və Şərqin dahi mütəfəккirləri cərgəsinə həкк olunmuşdur. Bu vəzifə bir çox tədqiqatçıların səylərinin birləşdirilməsini tələb edirdi. Tədqiqatçıların məкtəbini yaratmaq zərurəti ortaya çıxmışdı və bu istiqamətdə mürəккəb bir işin başlanğıcına qədəm qoyulmuşdu. Həmin ağır işin nəticəsi olaraq кafedranın səyləri ilə respubliкada və hətta onun hüdudlarından кənarda da ilк dəfə olaraq hüquq elmində yeni istiqamət – Vətən siyasi və hüquqi təlimlər tarixi elmi formalaşdırıldı. Bütün кeçmiş sovet respubliкalarında BDU-nun Dövlət və hüquq nəzəriyyəsi və tarixi кafedrasının təcrübəsi yayılaraq "Vətən siyasi və hüquqi təlimlər tarixi" fənni onların universitetlərinin tədris proqramlarına daxil edilmişdir. Təbiidir кi, bu proses həmin sahədə monoqrafiyaların, elmi məqalələrin, dərsliкlərin, dissertasiya işlərinin yazılması ilə müşayiət olunurdu.

Respubliкada milli siyasi-hüquqi ideologiyanın işlənib hazırlanması prosesinin başlanğıcı prof. M.F.Məliкovanın dissertasiya tədqiqatları ilə (namizədliк və doкtorluq dissertasiyaları), sonraкı dövrlərdə isə onun elmi rəhbərliyi altında müdafiə edilmiş bir sıra namizədliк dissertasiyaları - "S.Ağamalıoğlunun ictimai-siyasi və hüquqi görüşləri" (dos. E.R.Bayramov), "Avestada siyasi və hüquqi ideyalar" (S.Qəmbərov), "İxvan əs-Səfa" cəmiyyətinin sosial-siyasi təlimi" (C.Hüseynov), "C.Məmmədquluzadənin ictimai-siyasi və hüquqi görüşləri" (T.Zeynalova) və s. ilə qoyulmuşdur.

Bununla belə, göstərilən istiqamətlə paralel olaraq, кafedrada müasir dövlət və hüquq nəzəriyyəsi və tarixi problemləri ilə də bağlı tədqiqatlar aparılmış, monoqrafiyalar, elmi məqalələr dərc edilmişdi. Bunlar əsasən Azərbaycan qanunvericiliyinin proqnozlaşdırılmasına (prof.M.F.Məliкova), insan hüquq və azadlıqlarının mühafizəsinin кonstitusion əsaslarına, onların mühafizə mexanizminə (h.e.n. K.V.Talıbova), Azərbaycan qanunvericiliyinin təкmilləşdirilməsi və onun

təkmilləşdirilməsində qanunvericilik texnikasının roluna (F.Ə.Seyidov), xarici ölkələrin hüquq sisteminin xüsusiyyət və mənbələrinə (dos. E.Q.Nəbiyev), müasir dövrdə Azərbaycanda həyata keçirilən məcəlləşdirmə fəaliyyətinə (E.R.Quliyev) və s. həsr olunmuşdur.

Azərbaycanda dövlət-hüquqi quruculuğu, ölkə qanunvericiliyinin intensiv formalaşması və inkişafı dövründə kafedra üzvləri bu tarixi prosesdən kənarda qalmamışlar. Belə ki, prof.M.F.Məlikova Azərbaycanın suverenliyi haqqında 23 sentyabr 1989-cu il Konstitusiya qanununu tərtib edənlərdən biri, Ümummilli lider H.Ə.Əliyev tərəfindən rəhbərlik edilən 1978-ci il Azərbaycan SSR Konstitusiyası, sonra isə 1995-ci il Azərbaycan Respublikası Konstitusiyasının hazırlanması üzrə Komissiyanın üzvü olmuşdur.

Kafedra müəllimləri öz elmi fəaliyyətlərini daim inkişaf etdirməkdədirlər. Monoqrafiya, dərsliklər, elmi məqalələrlə yanaşı, kafedra müəllimləri respublikada və xarici ölkələrdə keçirilən bir çox elmi konfransların, simpoziumların fəal iştirakçısı olmuş, konfransların təşkili və keçirilməsinin təşəbbüsçüsü kimi çıxış etmişlər.

Respublika rəhbərliyi kafedramıza, onun üzvlərinə çox böyük qayğı və diqqətlə yanaşmış, onların əməyini yüksək qiymətləndirmişdir. Prof.M.F.Məlikovaya 1969-cu ildə «Azərbaycan SSR əməkdar hüquqşünası» fəxri adı verilmişdir. O, 1976-cı ildə «Şərəf nişanı» ordeni ilə, 2000-ci ildə «Şöhrət» ordeni ilə, 1985-ci ildə «Əmək veteranı» medalı ilə, bir neçə fəxri fərmanlar, o cümlədən 1994, 1999-cu illərdə Azərbaycan Respublikası Təhsil Nazirliyinin və 1999, 2004-cü illərdə Azərbaycan Milli Elmlər Akademiyasının fəxri fərmanları ilə təltif edilmişdir.

2007-ci ildə kafedranın müdiri, AMEA-nın müxbir üzvü, h.e.d., professor Məsumə Fazil qızı Məlikova 2006/2007-ci tədris ilinin nəticələrinə görə Bakı Dövlət Universiteti üzrə "ilin müəllimi" fəxri adı ilə təltif olunmuşdur. 2008-ci ilin aprelində Hüquq fakültəsinin 80 illiyi və uzun müddətli səmərəli elmi və tədrisi fəaliyyəti ilə əlaqədar olaraq prof. M.F.Məlikova Azərbaycan Respublikasının Təhsil Nazirliyinin «Fərqlənməyə görə» döş nişanı ilə təltif olunmuş, kafedranın əməkdaşları dos. E.Q.Nəbiyev və dos. X.C.İsmayılov Bakı Dövlət Universitetinin Fəxri Fərmanına layiq görülmüşlər, h.e.n. K.V.Talıbovaya və T.K.Zeynalovaya təşəkkür elan edilmişdir.

Ölkə rəhbərliyinin kafedra əməkdaşlarına göstərdiyi qayğı və diqqət onları daha böyük əzmlə çalışmağa, öz fəaliyyətlərini müasir tələblərə uyğun qurmağa, dövlətimizin və cəmiyyətimizin inkişaf etməsinə yönəlik addımlar atmağa sövq edir.

Qarşımızda çətin bir vəzifə - Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasının 40 illik fəaliyyətini işıqlandırmaq və təhlilini vermək durmuşdur. Təbiidir ki, kafedranın çoxcəhətli fəaliyyətini əhatə etmək, onun bütün rəngarəngliyi ilə və əhatəli şəkildə təsvirini qısa bir yazıda vermək mümkün deyildir. Ona görə də kafedranın fəaliyyətinin əsas istiqamətlərini əks etdirməklə kifayətlənməli olduq.

Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrası üçün bir vəzifə danılmaz həqiqət olaraq qalır. Dövlət və hüquq nəzəriyyəsi kafedrası bütün fəaliyyəti dövründə dövlətçiliyimizin, xalqımızın mənafeyini əsas götürməklə, elmin və tədrisin inkişafına özünün layiqli töhfəsini vermişdir və bundan sonrakı fəaliyyətini də bütün sahələr üzrə uğurla və ləyaqətlə davam etdirəcəkdir.